# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANIN TİCARƏTİNİN İNKİŞAFINDA GƏNCƏ QUBERNİYASININ ROLU

M.P.OSMANLI
***Bakı Dövlət Universiteti***

XX əsrin əvvəllərində iqtisadiyyatın inkişafındakı müxtəlif meyllər bəzi kənd bazarlarının əvvəlki mövqelərinin itirilməsinə gətirib çıxarsa da, onların müəyyən qədəri hələ də qəzanın, bəzi hallarda isə bölgənin təsərrüfat-ticarət həyatında mühüm rol oynamaqda davam edirdi.

Məsələn, Şuşa qəzasındakı Ləmbəran bazarı özünün əvvəlki iri ticarət dövriyyəsinin miqyasını qoruyub saxlaya bilmişdi. Əsrin başlanğıcında bu bazar Qarabağın ən iri ipəkçilik məhsulları satışı bazarı olaraq qalırdı. Bu dövrdə təkcə Ləmbəranın özündə hər il orta hesabla pulu 14 manatdan olan 1500 pud barama bəsdələnilirdi (1).

Ağdam isə bu dövrdə bütün Qarabağın dağətəyi hissəsində mühüm iqtisadi mərkəzə çevrilmişdi. Bu rayonun kənd təsərrüfatı məhsulları satışının çox böyük hissəsi məhz bu bazarın payına düşürdü. Əvvəlki, necə deyərlər, atüstü Ağdam həftəbazarı öz yerini böyük anbarları, sanballı dükan və mağazaları olan zəngin daimi bazara vermişdi. Hər bir şəhərdə olduğu kimi, Ağdam bazarında da parfümeriyadan tutmuş qalanteriyayadək istənilən çeşiddə mal almaq mümkün idi.

Bununla yanaşı, Ağdam özü sənətkarlıq və sənaye mərkəzinə, ən başlıcası isə buradan Yevlax və Şuşaya göndərilən əsas kənd təsərrüfatı məhsulları (şərab, pambıq, taxıl, barama və s.) üçün anbar məntəqəsinə çevrilmişdi (2).

Gəncə quberniyasının ən məşhur kənd bazarlarından biri Ağdaş bazarı (Ərəş qazası) XX əsrin əvvəllərində öz ticarət dövriyyəsinə görə bütün Cənubi Qafqazda məşhur idi. Ağdaş bazarının ticarət dövriyyəsinin fasiləsiz surətdə genişlənməsinə, burada bazar günlərinin həftədə 2 gündən həftədə 3 günə (cümə-bazar) qalxmasına səbəb oldu. 1908-ci ildə Ağdaş bazarının əmtəə dövriyyəsi 1899-cu illə müqayisədə iki dəfə artmışdı. Bu bazarda təkcə pambıq və barama satışı üzrə ticarət dövriyyəsi 1 mln. manatdan çox olmuşdu (2, s. 42-45; 266-267). Taxıl, meyvə və s. kənd təsərrüfatı məhsulları satışı üzrə də bu bazarın ticarət dövriyyəsi xeyli artmışdı.

Ağdaş bazarına daxil olan pul axınının günü-gündən artması 1910-cu il iyulun 1-dən etibarən burada qəza xəzinəsinin açılmasını zəruri etdi (3). Bütün Ərəş qəzası rayonun xidmət göstərən Ağdaş xəzinəsi iri məbləğdə bank əməliyyatları yerinə yetirirdi; bunların da içərisində iri məbləğin pul baratlarının qəbulu və verilməsi əsas yer tuturdu. Pul baratları əməliyyatları üzrə bu xəzinənin illik dövriyyəsi bir neçə milyon manata çatırdı. Ağdaş xəzinəsindəki bank əməliyyatlarının çox iri miqyası həmçinin Ağdaş həftəbazarı və Ərəş qəzasındakı digər kənd ba-

zarlarının ticarət dövriyyəsinin sürətlə genişləndiyini göstərən əsas əlamətlərdən biridir.

XX əsrin əvvəllərində Cəbrayıl qəzası üzrə də kənd bazarlarının ümumi ticarət dövriyyəsi xeyli artaraq, ildə 1 mln. manata (barama və xalça satışı istisna edilməklə) çatmışdı.

Bundan əlavə hər il bu qəzadan orta hesabla 40 min manatlıq barama və 130 min manatlıq xalça aparılırdı (4). Barama və xalça ticarətində qəza üzrə birinci yeri Cəbrayıl bazarı tuturdu. Bu dövrdə Hadrut bazarının da əhəmiyyəti xeyli artmışdı.

XX əsrin əvvəllərində Gəncə quberniyası üzrə əsas kənd sənətkarlıq mərkəzləri aşağıdakılar idi (1901-ci ilin məlumatları):

Gəncə qəzası üzrə: Georgiyevski, Çaykənd və Novosaratovka kəndləri, Yelenendorf və Annenfeld koloniyaları, habelə istirahət günlərində ətrafında gur həftəbazarı yığılan Gədəbəy zavodu;

Ərəş qəzası üzrə: Qaradağlı-Padar (35 manufaktura dükanı, 60 çörəkxana, 73 müxtəlif sənətkar, 8 pambıqtəmizləmə maşını, 3 dəyirman, 17 yeməkxana, 9 çayxana və həftənin üç günü cümə, şənbə, bazar yığılan həftəbazarı), Salamabad (33 xırdavat dükanı, mehmanxana və cümə günü həftəbazarı) və Xanabad (3 xırdavat dükanı və 3 mehmanxana) kəndləri;

Cəbrayıl qəzası üzrə: Qarabulaq (36 xırdavat, 28 manufaktura dükanı, 3 qəssabxana, çoxlu sənətkar və çərşənbə günü bazar), Hadrut və Cəbrayıl (7 xırdavat, 12 manufaktura dükanı və cümə günü, bazar) kəndləri;

Cavanşir qəzası üzrə: Bərdə (15 sənətkarlıq emalatxanası, 14 dükan, 3 çörəkxana və cümə günü bazar) və Tərtər (108 manufaktura dükanı, sənətkarlar və şənbə günü, bazar) kəndləri və Yevlax dəmiryolu stansiyası yaxınlığındakı qəsəbə (4 manufaktura, 7 baqqal və 3 xırdavat dükanı, həftəbazarı);

Zəngəzur qəzası üzrə: Gorus, Ərsevən (bazar günləri həftəbazarı), Xocağan, Zəngilan (cümə), Astazor, Birirkli;

Qazax qəzası üzrə: Ağstafa dəmiryolu stansiyası, Qazax (40 sənətkarlıq emalatxanası, 5 meyxana, 65 dükan və cümə günləri həftəbazarı), Köhnə Dilican (7 manufaktura, 18 xırdavat dükanı, çoxlu emalatxana), Poqos kilsə, Caharheç Yeni Dilican, Karvansara (4 manufaktura, 8 xırdavat dükanı, çoxlu emalatxana) və Mixaylovka (yay həftəbazarları) kəndləri;

Nuxa qəzası üzrə: Cəfərabad (38 xırdavat dükanı və bazar ertəsi günü, bazar), Vartaşen (5 ipəksarıma fabriki, 6 kirəmit zavodu, 12 xırdavat dükanı, bazar ertəsi günü, bazar), Padar (cümə axşamı günləri, bazar), Xaçmaz (18 xırdavat dükanı və çərşənbə günü bazar), Bum (bazar günü), Vəndam (13 baqqal dükanı, sənətkarlıq emalatxanaları və çərşənbə axşamı, bazar), Qutqaşen (14 baqqal, 3 manufaktura dükanı, sənətkarlıq emalatxanaları və cümə günləri, bazar), Nic (14 baqqal dükanı, xeyli emalatxana və çərşənbə axşamı, bazar), Soltan-Nuxa (bazar ertəsi) və Tikanlı kəndləri;

Şuşa qəzası üzrə: Xanagah, Ballıca, Xankəndi, Kişi, Tağ, Tuğ, Ləmbəran, Seyidli (11 dəyirman, 25 manufaktura, 28 baqqal, 50 xırdavat dükanı, 2 karvansara, 76 sənətkarlıq emalatxanası və bazar günləri həftəbazarları), Şıxlar Qərvənd (3 karvansara, 7 xırdavat və manufaktura dükanı), Muğanlı (cümə axşamı günü bazar) və Xəlfərəddin kəndləri (5, s. 1-297).

Yuxarıda sadalanan kəndlərdən bir çoxu təkcə sənətkarlıq və ticarət mərkəzləri olaraq qalmamış, konyak, meyvə şərabçılıq, ipəksarıma, pambıqtəmizləmə və s. müəssisələrin meydana çıxdığı sənaye mərkəzlərinə çevrilmişdi.

Bütün Gəncə quberniyası üzrə ticarət sənətkarlıq mərkəzlərinin sayı bu dövrdə 50-ə bərabər idi; bunlardan da 28-də həftəbazarları yığışırdı. Ən çox bazar, əvvəlki tək, Nuxa qəzasında (9 bazar) cəmləşmişdi (5).

Bu bazarlarda başlıca ticarət predmetləri manufaktura, baqqaliyyə, dulusçuluq və s. mallardan, habelə kənd təsərrüfatı və sənətkarlıq məhsullarından ibarət idi. Bu bazarların bəzilərində dövriyyə xeyli böyük olur və məsələn, Ağdaş və ya Ağdamda olduğu kimi, ildə 2 mln. manatı keçirdi (6, s. 23).

Gəncə quberniyasının kənd yerlərində ticarətin vəziyyəti barəsində daha dolğun məlumatlar 1908-ci ilə aiddir. Bu məlumatlara görə Gəncə qəzasının 202 kəndindən 71-ində 321 dükan və ticarət tikilisi var idi. Ticarət baxımından daha inkişaf etmiş 11 kənddə 155 dükan və digər ticarət müəssisəsi cəmləşmişdi. Ərəş qəzasının 131 kəndindən 72-sində 512 dükan və digər ticarət müəssisəsi var idi ki, bunlardan da 353-ü 4 kəndin payına düşürdü. Nuxa qəzasının 138 kəndinin 54-ündə 212 (68-i cəmisi 6 kənddə), Zəngəzur qəzasının 323 kəndinin 47-sində 150 (26-sı 2 kənddə), Qazax qəzasının 135 kəndindən 57-sində 252 (102-si 4 kənddə), Cavanşir qəzasının 225 kəndindən 34-ündə 126 (61-i 2 kənddə), Qaryagin qəzasının 168 kəndinin cəmisi 39-unda 330 (250-si 4 kənddə) və nəhayət, Şuşa qəzasının 224 kəndindən 61-də 243 (118-i 7 kənddə) dükan və s. ticarət vahidləri fəalliyyət göstərirdi. Bütövlükdə Gəncə quberniyasının 1546 kəndindən ancaq 435-də dükan və digər ticarət müəssisəsi var idi (6, s. 23-24).

Yuxarıda gətirilmiş faktik və statistik materialların təhlili belə hesab etməyə imkan verir ki, XX əsrin əvvəllərində dükan və s. ticarət vahidləri ilə daha zəngin olan qəzalar Ərəş, Nuxa, Qazax və Gəncə qəzaları idi; bunların ardınca Şuşa və Qaryagin, nəhayət Cavanşir və Zəngəzur qəzaları gəlirdi. Ayrılıqda götürülmüş hər bir qəzada ticarətin inkişaf səviyyəsinin düzümü də yuxarıdakı ardıcıllığa təxminən uyğun gəlir.

Quberniya üzrə ən iri ticarət mərkəzləri aşağıdakılar idi:

Ərəş qəzasında: Qaradağlı Padar (250 dükan və s. ticarət tikilisi) və Qayabaşı (10) qəzadakı cəmi 512 dükandan 353-ü;

Nuxa qəzasında: Baş Köynük, Böyük Dəhnə, Vartaşen, Padar (hər birində 10), Kiçik Dəhnə (12) və Vəndam (16) - cəmi 212-dən 68-i;

Qazax qəzasında: Poylu (11), Yuxarı Salahlı (16), Karvansara (25) və Köhnə Dilican (50) cəmi 252-dən 102-si;

Gəncə qəzasında: Qırxlı, Yuxarı Ayıplı, Qaracəmirli, Səfikürd (hər birində 10), Çayburun və Xilxinə (15), Dügərli (16), Morul (17), Qovlar-Sarlı (20) və Çaykənd (32) - cəmi 321-dən 155-i;

Şuşa qəzasında: Tağavert və Tuğ (hər birində 10), Hindarx (13), Xəlfərəddin (15), Ləmbəran və Ağcabədi (20) və Tağ (30) cəmisi 243-dən 11-i;

Qaryagin qəzasında: Xanlıq və Mirzəcamallı (hər birində 10), Hadrut (50) və Qaryagin (180) - cəmisi 333-dən 250-si;

Cavanşir qəzasında: Yuxarı Çaylı (11) və Bərdə (50) - cəmi 126-dan 61-i;

Zəngəzur qəzasında: Xınzırax (12) və Dığ (14) - cəmi 150-dən 26-sı (2, s. 1-265).

Bütövlükdə Gəncə quberniyasında kənd ticarət mərkəzlərinin ümumi sayı 40-a bərabər idi. Üç yüz doxsan beş kənddə yerləşmiş 2149 dükan və s. ticarət vahidlərinin 1333-ü bu 40 kənddə yerləşirdi. Bu 395 kəndin hər birində adətən 2-3 (bəzi hallarda 9) dükan yerləşirdi. Yuxarıda göstərilən 2149 dükandan 55 faizi 40 inkişaf etmiş kənddə, 45 faizi isə qalan kəndlərdə yerləşirdi (2).

## QEYDLƏR


1. SMDTA, f.582, siy.4, iş 13911, vər. 1.
2. Памятная книжка Елизаветпольской губернии на 1910 год. IV şöbə, Елизаветполь, 1910.
3. «Zakavkaziya» qəzeti, 1910, 17 iyul.
4. «Шушинский листок» газета, № 11, 1911 г.
5. Сборник сведений о Елизаветпольской губернии. Тифлис, 1902.
6. Обзор Елизаветпольской губернии за 1900 год. Тифлис, 1901.


## МЕСТО ГЯНДЖИНСКОЙ ГУБЕРНИИ В РАЗВИТИИ ТОРГОВЛИ В АЗЕРБАЙДЖАНЕ В НАЧАЛЕ XX ВЕКА


**М.П.ОСМАНЛЫ**


## РЕЗЮМЕ


В статье рассмотрены вопросы, связанные с развитием торговли в Азербайджане в начале XX века. Подробно изучена экономика Гянджинской губернии. Приведены данные о всех существующих в губернии в указанный период торговых отраслях и рынках сбыта товаров как в центрах уездов, так и в селах.

Основываясь на архивные данные и труды многих ученых, автор рассматривает численность магазинов и торговых центров, а также товарообмен отдельных ярмарок Гянджинской губернии.


## PLACE OF GANJA PROVINCE IN DEVELOPMENT OF TRADE IN AZERBAIJAN IN THE BEGINNING XX CENTURIES


**M.P.OSMANLI**


## SUMMARY


In clause the questions connected to development of trade in Azerbaijan in beginning XX centuries are considered its detailed the economy of Ganja province is investigated. The data on all existing in province in the specified period trade branches and markets of selling of the goods are given both at the centers of districts and villages.

Were based on the archival data and works of many scientists the author examines number of shop and shopping centers and also barter of separate fairs of Ganja province.